## *Dünya notariat tarixi*

“Notarius” sözü bir çox digər hüquqi terminlər kimi latın mənşəlidir. Latın dilindən tərcümədə “notarius” sözü katib, yazan (mirzə) deməkdir. Notarius sözünün kökü “nota” – latın dilindən “qeyd, işarə” kimi tərcümə olunur.

Müasir notariatın uzun və mürəkkəb inkişaf tarixi vardır.

Qədim notariatın izlərinə ilkin olaraq Şumer, Babil və Misir yazılı mənbələrində rast gəlinir.

Daha sonra isə, qədim Romada müasir notariatın əsasları qoyulmuşdur.

Notarius peşəsinin yaradıcıları əslində qədim sivilizasiyalarda rəsmiləşdirilən mülki dövriyyənin sənədlərini tərtib edən səlahiyyətli şəxslər – katiblər olmuşlar. Onlar hüquqi sübutları formalaşdırmaq və möhkəmləndirmək səlahiyyətinə malik olan etibar edilən peşə sahibləri, başqa formada desək xüsusi məmurlar idilər.

Notariuslara tarixin bütün dövrlərində ehtiyac olmuşdur, lakin notariatın lazımi və rəsmi səviyyədə formalaşması mülki hüquq münasibətlərinin və mülki dövriyyənin inkişafı ilə başlamışdır.

Mülki münasibətlərin rəsmi formada inkişaf etdirilməsi və tənzimlənməsi yalnız notariusların (katiblərin) həyata keçirdikləri hüquqi (rəsmi) prosedurlar nəticəsində formalaşa bilərdi.

Eramızdan əvvəl IV minillikdə dünyanın ən qədim və ən qədim və böyük sivilizasiyalarından biri Dəclə və Fərat çayları arasında və Mesopotamiyanın şərqində yerləşmiş Şumer dövləti yaranmışdır. Şumer dövlətinin III Urr sülaləsinin (e.ə. 2112-2003-cü illər) banisi olan Urr-Nammunun hakimiyyəti dövründə qanunlar külliyyatı – “Urr-Nammu Məcəlləsi” tərtib edilmişdir. Bu, tarixdə indiyə qədər məlum olan ən qədim qanunnamələrdən hesab edilir. “Urr-Nammu Məcəlləsi” həmin dövrün məhkəmə prosedurlarını, həmçinin mülki müqavilələrin bağlanmasını və digər hüquqi münasibətləri tənzimləyirdi. Hüquqi (rəsmi) işlərin məzmununu yazmaq, tərtib etmək işini “dubsar”lar adlandırılan, yazı işini mükəmməl öyrənmiş və o dövr üçün Şumerin qanunçuluq və katiblər məktəbi olan Edubbada təhsil almış katiblər yerinə yetirirdilər. Dubsar (katib) peşəsinə mükəmməl şəkildə yiyələnmək bəzən 15-20 il vaxt aparırdı və bu peşə dəyərli və nüfuzlu bir iş sayılırdı.

Qədim Babildə notarius peşəsi barədə məlumatlar Kral Hammurapinin hakimiyyəti dövrünə (e.ə. 1760) aiddir. Həmin dövrdə ilk dəfə davranış qaydaları barədə Məcəllə dərc etdirilmiş və daş lövhələrə həkk olunmuşdur. Qədim Babildə, xüsusi mülkiyyət hüququ və sadə mülki dövriyyə yarandıqdan sonra əldə olunmuş hüquqların möhkəmləndirilməsini və təsdiq edilməsini inanılmış şahidlər həyata keçirirdi. Şahidlər yazılı formada müqavilə  bağlamaq adəti ortaya çıxana kimi

notariat xidmətinə oxşar xidmət göstərirdilər. Belə ki, şahidlər müqavilə üzrə öhdəliklərin məzmununu yaddaşlarında saxlamalı və ehtiyac olduqda danışmalıydılar. Yazılı formada müqavilə yaranandan sonra şahidlərin vəzifələri dəyişdi, onlar bağlanmış müqavilənin doğruluğunu təsdiqləmək üçün cəlb edilirdilər. Katiblər müxtəlif aktları gil lövhələr üzərində xüsusi qaydalarla hazırlayırdılar. Fironların hakimiyyəti dövründə gil lövhələr sonradan qiymətli kağıza çevrilən papiruslarla, papiruslar isə perqamentlərlə (heyvan dərilərindən hazırlanmış və yazı yazmaq üçün nəzərdə tutulmuş material) əvəz olundu.

Qədim Misirdə, əsas fəaliyyətləri hüquqi sübutları qeydiyyatdan keçirmək, dövlət və xüsusi qanunlara əsaslanan müqavilələr tərtib etmək olan katiblər "aqoronamoslar", Yunanıstanda isə "iermemneslər" adlandırılan din xadimləri idi.

Butün bunlar notariatın yaranmasının ilkin izləri kimi qədim tarixdə əks olunur.

Lakin, müasir notariatın əsasının qədim Romada meydana gəldiyi hamı tərəfindən qəbul edilir. Romada notarius barədə ilk xatırlamalar imperator Yuliy Sezarın katibinin qeydlərində aşkar olunmuşdur. Roma hüququ yazılı formada dərc edilirdi və onun üstünlüyü də yazılı sübutlardan ibarət olması idi. Sezarın hakimiyyəti dövrü, Roma hüquqşünaslığının çiçəklənmə dövrü sayılırdı. Həmin dövrdə romalılarda fəaliyyəti müstəqil olmayan, dövlət və xüsusi qulluqda olmaqda iki kateqoriyaya bölünmüş vəzifəli məmurlardan, katiblərdən (scribae) ibarət xüsusi institut fəaliyyət göstərirdi. Birinci kateqoriyaya magistratda dövlət qulluğunda xidmət göstərən və dövlət xəzinəsindən müəyyən əmək haqqı alan katiblər (scribae) daxil idi. Onların vəzifələri ömürlük hesab olunurdu və yalnız ictimai mövqeyi olduqca yüksək olan və vətəndaş şərəfindən məhrum olmayan Roma vətəndaşları seçilirdi. Onların əsas funksiyaları ictimai sənədlərin (tabulacpublicae) hazırlanması, magistratların verdiyi yazılı əmrlərin icrası, pretor məhkəməsi zamanı məhkəmə protokolunun (codex) tərtib olunması və ictimai hesabların (mühasibatlıq) aparılmasından ibarət idi. İkinci kateqoriyaya fərdi şəxslərin xidmətində olan katiblər daxil idi. Onlar sərbəst fəaliyyətlə məşğul olan, ev katibi kimi xidmət göstərən, "exceptores" adlandırılan sərbəst muzdlular və ya "notarii" adlandırılan qullar idilər. Lakin, katiblər hüquqşünas deyildilər.

Qədim Romada hüquqi sənədlərin və müqavilələrin rəsmiləşdirilməsi ilə məşğul olan digər kateqoriya azad şəxslər də var idi. Bunlar "tabellion"lar ("tabelliones") – dövlət qulluğunda olmayan, qanunla müəyyən edilmiş qonorara görə, ehtiyacı olan hər kəs üçün hüquqi aktların və məhkəmə sənədlərinin dövlət nəzarəti altında hazırlanmasında iştirak edən hüquqi bilikləri olan azad insanlar idi. Aktlar gerblə möhürlənmiş papirus kağızının üzərində

tərtib olunur, tərəflər və şahidlər tərəfindən imzalanır, tabelionun imzası ilə təsdiq olunurdu.

Tabellionlar öz funksiyalarını onlar üçün şəhərin konkret küçələrində ayrılmış binalarda, yalnız müstəsna hallarda isə, evlərdə həyata keçirirdilər. Tabellion olmaq istəyən, hüquqi biliklərə sahib olmalı, tabellion təşkilatına qəbul edilməli və şəhərin prefektoru tərəfindən vəzifəsi təsdiq edilmiş azad Roma vətəndaşı olmalı idi. Müasir dövrün yanaşmasına görə, məhz tabellion institutu elə notariatın prototipi sayılır.

Notariat institutunun sonraki inkişafı eramızın VI əsrində Roma imperatoru Yustiniyanın Roma hüququnu yekun olaraq formalaşdıran qanunverici aktların tam toplusunu nəşr etdirilməklə davam etdirildi.

Orta əsrlərdə notarius peşəsi Roma hüququnda ən nüfuzlu və hörmətli bir vəziyyətə gəldi. XI əsrdə, Roma hüququnun dirçəlişinin başlanması ilə Boloniyada dünyanın ilk notariat məktəbi quruldu. Notariat məktəbləri sonradan hüquq məktəblərinə, daha sonra isə o dövrdə ən yaxşı notarius-hüquqşünasların dərs keçdiyi universitetlərə çevrildi. İntibah dövrü XVIII əsrə qədər davam etdi. Notariuslar o dövrlərin ən savadlı insanları idilər.

Notariat hərəkətlərində bəşər sivilizasiyası tarixində xüsusi yer tutan faktlar və hadisələrin qeydə alındığı hallar da vardır. Misal üçün, 1492-ci ildə İspan dəniz kapitanı Xristofor Kolumbun səyahəti ərzində onu krallıq notariusu Eskovedo müşayiət edirdi ki, o Amerikanın kəşfi haqqında akt tərtib etmiş və bununla da rəsmi olaraq tarixi bir hadisəyə şahidlik etmişdir.

Notariusların necə adlandırılmasından asılı olmayaraq, hansı sinif, təhsil və digər meyarlarla təyin olunmasına baxmayaraq, onlara qoyulan tələblər hər zaman dəyişməz olaraq qaldı: hüquqi savad, cəmiyyətdə layiqli nüfuz və notariat funksiyalarını yerinə yetirmək hüququ.

Hüquqi ədəbiyyatlarda notariat tarixi haqqında məlumatlar fərqli xarakter daşıyır, bu da əsasən obyektiv səbəblərdən qaynaqlanır. Belə ki, tarixi, dini, etnik və digər xüsusiyyətlərdən asılı olaraq müxtəlif dövrlərdə və fərqli ölkələrdə fərqli notariuslar formalaşdı və bu peşə növü ilə məşğul olan insanlar fərqli olaraq adlandırıldı.

Notariatın inkişafı barədə danışarkən qeyd etmək lazımdır ki, ticarət əməliyyatlarının mötəbərliyini, hüquqi və mülki dövriyyənin sabitliyini təmin etmək üçün daha da zərurət yarandıqca notariat institutu da buna mütənasib olaraq təkmilləşməyə başlayırdı.

Latın notariatının canlanmasında xüsusi rol Fransaya məxsusdur. Orta əsrlərdə notariuslar yalnız Fransa Kralının fərmanı ilə təyin olunurdu və kilsə nümayəndələri olmamalı idi. Notariat kontorunun girişində kral gerbi olan xüsusi bir lövhə var idi. Fransa kralı I Fransuanın (1515-1547) hakimiyyəti dövründə

notariusların fəaliyyətini tənzimləyən nizamnamə qəbul edildi və ilk dəfə olaraq notariat hərəkətləri haqqında faktların və məlumatların gizli saxlanması barədə təlimat qəbul edildi.

Fransa notariatı 1676-cı ildən bu günə qədər dəyişdirilmədən qorunub saxlanılan rəsmi gerb qəbul etdi. Məhz bundan sonra notariuslar sənədlərin etibarlılığını və həqiqiliyini təsdiqləməyə başladılar. Onlar fəaliyyətlərini Fransa kralının, yəni dövlətin adından həyata keçirirməyə başladılar.

XIX əsrin əvvəllərində Napoleonun təqdim etdiyi Mülki Məcəllədə (Code Civil) notariat hüququ haqqında ayrıca bir fəsil var idi ki, demək olar ki, günümüzə qədər dəyişmədən qalmışdır.

Böyük Karl magistrat ilə birbaşa əlaqəli olan notariat haqqında konsepsiyanı təsdiqlədikdən sonra Fransa hakimiyyəti notariatın quruluşunda nümunə oldu. Buna qədər notarius, müqavilələri tərtib edən və imza etməsi üçün hakimə təqdim edən məhkəmə katibi idi. Sonradan, notarius hakimlərlə eyni səviyyədə dövlət möhürünə sahib olan və müqavilələri təsdiq etmək səlahiyyəti olan dövlət hakimiyyətinin birbaşa nümayəndəsi oldu. Notarius, yalnız notariat kontorunda ən azı 6 il işləmiş və xüsusi ixtisas imtahanından keçmiş şəxslər ola bilərdi.

Həmin dövrdə də notariatın funksiyaları çox geniş idi: notariuslar bütün aktları və müqavilələri təsdiq edirdilər, əmlakı siyahıya alırdılar və müxtəlif şəhadətnamələr verirdilər.

Notarius vəzifəsi ömürlük idi. Notariusun statusu o qədər əhəmiyyətli idi ki, notarial aktlar şərtsiz sübut etmə gücünə malik idi və xüsusi məhkəmə qərarı olmadan icra edilirdi.

Fransada ilk dəfə olaraq 1789-cu ildə “İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi” qəbul edildi. Fransanın məşhur notariusları Bevier, Demose və Gupillo sənədin mətninin hazırlanmasında iştirak etdilər.

Tarixdən məlumdur ki, Napoleon notariat məsələlərinə kifayət qədər peşəkarcasına yanaşırdı. Arxiv materiallarında, əsasən Napoleonun arvadı Jozefina ilə əlaqədar hissəsində nikah müqaviləsinin təsdiq olunmasını görə bilərik.

XIX əsrdə Fransa və digər Avropa ölkələrində notariat sistemi möhkəmləndi və güc qazandı.

Notariat fəaliyyətinə dair ilk qanunverici akt 19-cu əsrdə (16.03.1803) Fransada qəbul edilmiş, hazırki vaxtadək öz təsirini göstərən, azad notariatın xüsusiyyətlərini özündə formalaşdıran və sonradan latın notariatının modeli adlandırılan Ventoz Qanunu olmuşdur. Bu qanun həm Avropa, həm də bütün dünya notariatına əhəmiyyətli təsir göstərmişdir. 1920-ci ildə notariuslar assosiyasiyası yaradıldı.

2 Oktyabr 1948-ci il tarixində Argentinanın Buenos-Ayres şəhərində 1-ci Beynəlxalq Notariat Konqresi zamanı dünyanın on doqquz ölkəsinin – Argentina,

Belçika, Boliviya, Braziliya, Kanada, Kolumbiya, Kosta-Rika, Kuba, Çili, Ekvador, Uruqvay, Meksika, Paraqvay, Peru, Puerto-Riko, İspaniya, Fransa, İtaliya və İsveçrənin Notariat Palatalarının nümayəndələrinin iştirakı ilə Beynəlxalq Latın Notariat İttifaqı yaradıldı.

XX əsrin 2-ci yarısında notariat əməkdaşları telefon rabitəsi və yazı cihazlarından istifadə etməyə başladılar. Əsrin sonlarından başlayaraq isə, elektron sənədləşmələr notariatın inkişafında yeni bir mərhələnin başlanğıcı oldu.